

"Ailəm haqqında heç nə demək istəmirəm, çünki hər şey göz önündədir..."

# "Səhnədə Xalq artistiyəmsə, evimdə sadə xanımam..."

## Gülyanaq Məmmədova: "Hər bir qadın öncə evinin xanımı olmalıdır"

Səhnəyə çıxan gündən biz onu həmişə sadə, təvazökar, heç kimlə işi olmayan, qalmaqallardan uzaq, necə deyərlər, başını aşağı salıb öz işiylə, yaradıcılığı ilə məşğul olan, sevənlərinə ciddi əsərlər təqdim edən peşəkar sənətçi kimi tanıdıq. Xoşbəxt şair-jurnalistəm ki, onunla mənim də işbirliyim var, sözlərimə iki mahnı oxuyub. Beləliklə, müsahibimiz Azərbaycan Respublikasının, Özbəkistanın Xalq artisti, Prezident mükafatçısı, Mədəniyyət və İncəsənət Universitetinin səs müəlliməsi Gülyanaq Məmmədovadır.

*(Əvvəli ötən sayımızda)*

***- Çox istərdim ki, ustadlarınızı da xatırlayaq. Gülyanaq Məmmədovanın əlindən tutan, bu, sənətə gətirən kim olub?***

- Ustadlarımı heç vaxt unutmuram. Nəriman Əliyevin özünə və ailəsinə həyatım boyu borcluyam. Dünyasını dəyişənə qədər baş çəkmişik, ailəsinə də, özünə də. Allah rəhmət eləsin! Allah o dünyasını versin! Nəriman Əliyev muğam ustadım olub. Canəli Əkbərov universitetdə müəllimim olub. Uzun illər dahi Rəşid Behbudovla bir yerdə çalışan, sonra onun musiqi, mahnı ənənələrini davam etdirən Kamil Vəzirovun "Mahnı Teatrı"nda mahnı janrı üzrə inkişaf etməyimdə, musiqini hiss etməyimdə böyük rolu olub. Ona da Allahdan rəhmət diləyirəm.

Aktyor sənətində isə yenə də ustadım Faiq Zöhrabova öz təşəkkürlərimi bildirirəm. Ustadlarımın hamısının Allah o dünyasın versin. Hamısı dünyasını dəyişib, dörd ustadımın dördü də. Dördünə də həyatım boyu borcluyam. Mən bunu yeri gəldi-gəlmədi efirlərdə, müsahibələrimdə deyirəm, sən soruşmasan da deyəcəkdim.

***- Siz həm də ölməz, böyük sənətkarımız Elçin Cəlilovla "Mahnı Teatrı"nda uzun illər bir yerdə çalışmısınız, duetləriniz var. Elçin Cəlilovu necə xatırlayırsınız? Onunla bağlı hansı xatirələriniz var?***

- Elçin Cəlilovla bağlı çox gözəl xatirələrim var. Elçin bəy çox gözəl ifaçı idi. Həm muğam ifaçılığında həm mahnı, estrada ifaçılığında Elçin Cəlilov doğrudan da çox gözəl sənətkar idi. Çox təəssüf ki, aramızdan tez getdi. Onunla ifalarım da çox gözəl idi. İlk uğurum da Elçin Cəlilovla duetimizlə başlayıb. Bütün ölkələrdə mən Elçin Cəlilovla duetimlə sevilməyə başladım. Nəinki Azərbaycanda, bir çox Avropa ölkələrində - 1995-ci ildə İsveçdə, Stokholm şəhərində qastrol səfərində olarkən gətirib həmin kaseti qoydular ki, biz səni bu duetlə sevirik, sənin aşiqinik. Heç həmin mahnı mənim özümdə yox idi. Yəni o qədər səs salan duet olmuşdu. Həmin çərçivədə çoxdan duet oxunmurdu. O vaxt Təranə Vəlizadə ilə Eyvazın dueti var idi, Məmmədbağır-Zöhrə dueti, Nisə Qasımovanın duetləri var idi. Yaşar Səfərovla Elmira Rəhimovanın duetləri var idi. Ondan sonra bir ara duetlər səngidi, yox idi. 90-cı illərdə - 1995-ci ildə ilk olaraq Elçin Cəlilovla duetimi Kamil Vəzirov ərsəyə gətirdi. Duetlər yaranmağa başladı. Nə qədər duet ifaçılığı inkişaf etməyə başladı. Duetlər bu gün də var. Hətta qruplar da var. Amma Elçin Cəlilovun ifaları heç vaxt xatirimdən getməyəcək. Elçin mənim üçün doğrudan da gözəl dost, gözəl sənətkar idi, illərlə bir yerdə işlədiyim sənətçi dostum olub. Allah rəhmət eləsin! Onun da üzərində Kamil Vəzirovun rolu böyük olub.

***- Necə oldu ki, Özbəkistan Respublikasının Xalq artisti fəxri adına layiq görüldünüz? Gözlənilən idi, yoxsa...***

- Yox, gözləmirdim. Heç ağlıma da gəlməzdi. Son illərdə Özbəkistanda çox çıxışlarım olub. Öncə mən həm Azərbaycanımızın, həm də Özbəkistanın dövlət başçılarının hər ikisinə təşəkkürümü bildirmək istəyirəm. İstər cənab İlham Əliyevə, istər cənab Şavkat Mirziyoyevə, hər iki prezidentə can sağlığı arzulayıram. Mənim sənətimə bu cür dəyər verdikləri üçün çox şanslıyam, özümü çox xoşbəxt hiss edirəm. Hər bir kəsə nəsib olmayan bu böyük ad mənə nəsib olduğu üçün, bu adı doğrultmağa çalışacam.

Son illərdə Özbəkistanda, Daşkənddə, Xarəzm vilayətində, Ürgəncdə, Termezdə, Surxandərya vilayətində bir çox tədbirlərimiz oldu. Bu yaxınlarda yenə səfərim var. Yenə də Səmərqənddə, Daşkənddə bir çox tədbirlərimiz gözlənilir. Universitetlərdə çıxışlarımız olub. Nizami Gəncəvi adına Universitetdə, Əlişir Nəvai adına Universitetdə, Jurnalist Universitetində, Dövlət kitabxanasında, bir çox Azərbaycanlıların, Özbəkistanlıların baryerlərinin açılışında çıxışlarım olub. Amma bircə şeyi qeyd etməyə bilmərəm ki, uşaqlıqdan Özbəkistan haqda arzularım yüksək olub. Bu arzularımın gerçəkləşməsində Özbəkistanda - Daşkənd şəhərindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin rəhbəri Samir Abbasova çox minnətdaram. Çünki Samir müəllimin sayəsində mən Özbəkistana ayaq açdım, o dövləti yaxından gördüm, sevdim. Onun rəhbərlik etdiyi Mədəniyyət Mərkəzi doğrudan da Daşkənddə gözəl çalışır, mən bunu deməyə bilmərəm. Çünki iki dövlətin arasında dostluğun, qardaşlığın, mədəniyyətin, musiqinin, ədəbiyyatın inkişafında əmək, zəhmət, sərf eləməsən bu dostluğu, birliyi, bu inkişafı ortaya qoymaq olmaz. Bu üzdən Samir Abbasovun əməyi danılmazdır. Mənim də arzularımın gerçəkləşməsində zəhməti danılmazdır. Mən bunu itirə bilmərəm, təşəkkürümü bildirmək istəyirəm.

Eyni zamanda Özbəkistanda hörmətli millət vəkilimiz Qənirə Paşayevanın təşkil etdiyiyi tədbirlərin iştirakçısı olmuşam. Yenə də onlarla birgə



tədbirlərimiz gözlənilir. Onların nə qədər gözəl işlər gördüyünü öz gözlərimlə gördüm. İstər Samir müəllimdən, istərsə də Qənirə xanımdan çox şeylər öyrəndim. İşgüzarlıq, dostluq, birlik, dövlətçilik, bunların hamısının fövqündə doğrudan da yorulmadan çalışan insanlar var.

***- Səhv etmirəmsə, bu yaxınlarda da Özbəkistana səfər etmişdiniz...***

- Bəli, bu yaxınlarda Özbəkistan Kino Festivalına üz tutduq. Əlliyə yaxın ölkədən kino xadimləri, rejissorlar, yaradıcı insanlar iştirak edirdi. Həmin kino festivalı çərçivəsində "Azərbaycan kino günləri" də keçirilirdi ki, bizim də iki film təqdim olundu. Ayaz Salayevin "Torpaq" filmi və İlqar Nəcəfovun "Suğra və oğulları" filmi. Mən sizə deyim ki, hər iki film çox möhtəşəm, çox gözəl qarşılandı. Hər iki filmə görə göz yaşımızı yığa bilmədik. Neçə gün o filmlərin təsirindən çıxa bilmədim. Bu günə qədər də mən o filmlərin təsirindən ayrıla bilmirəm. Ayaz Salayevin filmində canlı-canlı bizim Qarabağda yaşadıqlarımız, əziyyət çəkən insanlarımızın etirafıg Digər filmdə də eyni səhnələrlə qarşılaşdıq. O film də elə Böyük Vətən Müharibəsində yenə də azərbaycanlıların yaşadıqları çirkablıqlar, zülmlərə məruz qalmaqlarından bəhs edirdi. Özbəkistanda çox gözəl filmlərimiz təqdim olundu.

***- Məlum səbəblərdən konsertiniz təxirə salındı. İnşallah, Özbəkistanda konsertiniz nə vaxt reallaşacaq?***

- Gülyaz xanımla Özbəkistanda konsertimiz nəzərdə tutulmuşdu. Özbəkistan saytları bunu işıqlandırmışdı. Afişalar, elanlar. Bütün bunlara rəğmən hamısını təxirə saldıq. Çünki biz bu konserti 12, 13, 15 sentyabr Kino Festivalı çərçivəsində verməliydik. Həmin ərəfədə şəhidlərimizin ağrısı, acısı bizi çox sarsıtdı, konserti təxirə saldıq. Yəqin oktyabr ayının ikinci yarısında bizim bu tədbirlərimiz yenidən baş tutacaq, inşallah. Gələcəkdə Özbəkistanda böyük konsert vermək arzusundayam. Birini də Azərbaycanda. İnşallah, nəsib olarsa bunlar haqda da fikir bildirərik.

***- Hansı bəstəkarla işbirliyiniz var?***

- Hal-hazırda yenə də Ruslan Səfəroğlu ilə işbirliyim var. İqbal Ağayevlə işləyirəm, dövlət universitetinin Tarix fakültəsinin rəhbəridir, çox gözəl mahnıları var. Yaqut Almazla da işbirliyim var. Faiq Sücəddinovla çox gözəl mahnımız ərsəyə gəldi - "Eşqimiz gözə gəldi". Belə mahnılarımız çoxdur. Hər təklif olunan mahnını da oxuya bilmirik. İstədiyimiz dərəcədə olmayanda oxumaq olmur.

***- Sizin yolunuzu davam etdirəcəyini düşündüyünüz tələbələriniz varmı?***

- Gözəl tələbələrimiz çoxdur. Hal-hazırda səhnədə oxuyan Kamilə, İlahə Nəbiyeva bacıları bizim davamçılarımızdır. Tələbələrimizin hamısı bir-birindən istedadlı, gözəldirlər. Övladın da dərsini yaxşı oxuyanı, biraz zəif oxuyanı olur, on barmağın hamısı bir olmur. Içərisində daha çox çalışqan, zəhmətkeşi, istedadlısı da, biraz tənbəli də ola bilir. Övlad da belədir. Tələbələrimin hamısı mənə övladlarım kimi əzizdir, doğmadır. Hamısından da çox razıyam. Ailələrindən gördükləri tərbiyələri, əxlaqları, mədəniyyətləri, bir də ifaları universitetdə məni qane edir.

***- Gülyanaq xanım, nəslinizdən oxuyan çoxdur. Demək olar ki, hamısının səsi var. Sizin övladlarınızın necə, səsləri varmı?***

- Hamısının səsləri var. Bir Fikrətdə görməmişəm. Dörd övladımdan üçündə bu istedadı aşkarlamışam. Amma qızım həkim olmaq istəyir. Oğlum idmançı olmaq istəyir. Mən isə ən balacaya biraz bel bağlamaq istəyirəm, görürəm ki, onda nəsə var. İstedadları olsa, daha da dəstək olaram, daha çox sevinərəm ki, davamçılarım var. Əlbəttə, bu sənətdə övladlarımı görmək istəyərəm. Yenə də deyirəm, istedadları olduğu təqdirdə.

***- Biraz da ailə həyatından danışaq. Həyat yoldaşınız Ziya müəllim tərəfindən Sizə sənətinizlə bağlı hər hansısa qadağaları olubmu?***

- Ailəm haqqında heç nə demək istəmirəm. Çünki hər şey göz önündədir. Vəssalam. Bu qədər.

***- Ailə qayğıları, incəsənət universitetində müəllimə olmağınız, uşaqlara baxmağınız Sizə çətinlik yaratmır?***

- Asan iş var? Çətinlik həmişə var. Bütün günü işdə, gücdə, çəkilişdə, tədbirdə, rayonlara el məclislərinə get, gəl. Hamı övladıyla istirahətə gedəndə biz bunu edə bilmirik. Bunu da danmaq olmaz. Uşaqlarımın dərsləriylə də mütəmadi məşğul ola bilmirəm. Bunun hamısı da madiyyat, xərc tələb edir. Uşaqlar üçün müəllim tutmaq, məktəbləri üçün əlavə xərclər... Onun üçün də qazanmaq lazımdır. Hər şeyin başında pul durduğu üçün el məclislərinə də üz tuturuq. Təbii ki, gündəlik tələbatımızı ödəmək üçün pul vacibdir. Geyimlərimiz, səs yazılarımız, gündəlik göz önündə olmağımız, bunların hamısı xərc tələb edir. Övladlarımızın təhsilləri də bir yandan inanılmaz xərc tələb edir.

***- Gülyanaq xanım, bəs ev işləri ilə, biş-düşlə aranız necədir?***

- Əla. Hər bir qadın öncə evinin xanımı olmalıdır. Mən səhnədə Xalq artistiyəm, sənətkaramsa, evimdə sadə xanımam, övladlarımın anasıyam, yoldaşımın həyat yoldaşıyam. Bişirməyi də bacarmalıyam, təmizlik işini də. Vaxt taparamsa ya səhərlər, ya da axşamlar.

***- Çox sənətkarların evində köməkçisi olur. Sizin necə, köməkçiniz varmı?***

- Yox, köməkçilərim yoxdur. Yenə də, sağ olsunlar, bacılarım mənə kömək edirlər.

***- Sonda Sizə bir şablon sual da vermək istərdim: Bizdən gözlədiyiniz, amma vermədiyimiz sual oldumu?***

- Suallarınız çoxdur. Suallar o qədər ola bilər ki, amma mənə elə gəlir suallarınız gözəl idi.

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**